Ədəbiyyat qəzeti

Xəlil Rza ULUTÜRK

# Yurdum, sənin sağlığına

*Bir məclisdə unuduldum,*
*Mey içdilər hər gələnin sağlığına,*
*Hər gedənin sağlığına.*
*Yaxasına qonduğumuz mavi gölün sağlığına,*
*Mey gətirən şux gözəlin sağlığına.*
*Güldandakı qızıl gülün sağlığına,*
*Xoş qədəmli ayın, ilin sağlığına*

*Unuduldum. Nə tutuldum, nə pərt oldum,*
*Pıçıldadım öz-özümə - Xəlil, sənin sağlığına!*
*Dörd ümmanı qucaqlayan ürəyinin sağlığına!*
*Qoşqar, Savalan dayağı kürəyinin sağlığına!*
*Qibtə etsin qoy dan yeri saçlarının*
*təkəm-seyrək ağlığına,*
*Ey dost, sənin sağlığına!*
*Otuz illik döyüşündə bir əsrlik yol keçdin sən,*
*Basılmadın, sarsılmadın.*
*Heç bir zaman qoltuqlara qısılmadın.*
*Şax yeridin öz yolunla, düz yolunla!*
*Mən heyranam sənin qaya dözümünə, dağlığına.*
*Dodağıma sıxa-sıxa piyaləni,*
*İçirəm bu şəlaləni, könlüm, sənin sağlığına!*

*Dost, ya düşmən görüşünə bircə an da gecikməyən,*
*Heç bir zaman xəstələnməz,*
*Ruhu enməz, əhdə sadiq, beyni yanar, qəlbi qaynar*
*Bir oğul var - Xəlil, sənin sağlığına!*
*Sən elə bir qartalsan ki, qalxmağın var, enməyin yox.*
*Sən elə bir ocaqsan ki, yanmağın var, sönməyin yox.*

*Sən elə bir yolçusan ki , məsləkindən dönməyin yox,*
*Tərif, çələng paylananda susmağın var, dinməyin yox.*
*Ayağın Yer kürəsində, əlin çatır Aya, Marsa,*
*Cahanda beş oğul varsa, sənsən biri, Xəlil Rza!*
*Şerimizin xoş taleyi, ağ baxtısan,*
*Döyüşkənmi deyim sənə, sən döyüşlər paytaxtısan!*
*Heç bilmirəm əfv elərmi dostlar məni?*
*Mən ötdüm bu tərənəni, bürüyərkən vüqar məni.*
*Elim-günüm, səsim-ünüm,*
*Bu qənd-şəkər piyaləni vurdum sənin sağlığına,*
*Öz sağlığım bəhanədir, yurdum, sənin sağlığına!*